# TARİX
# 5-8



*Deyirlər, bülbülə çəmən yaxşıdır,*
*İnsan üçün laləzar Vətən yaxşıdır,*
*Vahid, sorma, Vətən nədən yaxşıdır,*
*Adı gəlcək könlüm xəndan görünür.*

Gözəl bir yaz səhəri idi. Balaca Qalib atasının əlindən tutub məcburi köçkünlər üçün tikilmiş qəsəbənin mərkəzində yerləşən məktəbə tərəf addımlayırdı. O, yolboyu atasına hey müxtəlif suallar verir, atası da təmkinlə bu sualları cavablandırırdı. Birdən Qalib soruşdu: "Ata, nəyə görə qəsəbəmiz "Qayıdış" adlanır? Mən bizim sinif otağından asılan Azərbaycan xəritəsinə də baxmışam, bu adda başqa kənd, qəsəbə yoxdu axı?"

Atası Uluxan bu sualdan duruxdu, qaşları çatıldı, bir qədər susduqdan sonra: "Oğlum, o dağları görürsən, bax o başı qarlı dağlar Qarabağın dağlarıdı, Kirsdi, Dəlidağdı. Oralar bizim dədə-baba torpaqlarımızdı. Təxminən 30 il əvvəl ermənilər havadarlarının köməyi ilə oranı işğal etdilər. Xalqımız öz yurd-yuvasından didərgin düşdü. Lakin biz doğma torpaqlarımıza qayıtmaq ümidimizi heç vaxt itirməmişik. Ona görə qəsəbəmizin adını da "Qayıdış" qoymuşuq. Biz Qarabağımıza mütləq qayıdacağıq!"

# Vətən müharibəsi. Biz qayıtdıq!

**?** Sizcə, düşmən üzərində qələbə qazanmaq üçün nələr lazımdır?

İşğalçı ermənilər Qarabağda, onun üzük qaşı olan Şuşamızda "andiçmə" mərasimi keçirir, həmçinin orada qurduqları qondarma rejimin parlament binasını da tikməyə başlayırlar. 2020-ci ilin iyul ayında isə Qarabağdan – münaqişə ocağından kənarda yerləşən Tovuz ərazisində növbəti təxribat törədilir, Azərbaycan ordusunun generalı, əsgərlərin sevimlisinə çevrilən Polad Həşimov, polkovnik İlqar Mirzəyev xaincəsinə atılan mərmiyə tuş gəlir və şə-



**Ali Baş Komandan**, ölkə Prezidenti İlham Əliyevin **əmri ilə** rəşadətli ordumuzun bütün cəbhəboyu genişmiqyaslı **əks-hücumu** başladı.



Polad Həşimov

hid olurlar. Bu hadisələr xalqımızın böyük etiraz çıxışlarına səbəb olur. Artıq səbir kasamız dolmuşdu!

2020-ci ilin 27 sentyabr səhəri... Qarabağ səması atılan top atəşlərinə diksindi. Azğınlaşmış erməni silahlıları yenə də cəbhəyanı kəndlərimizi, yaşayış məntəqələrimizi atəşə tutmağa başladı. Dinc sakinlərin yaşadıqları evlər dağıdıldı, əhali sığınacaqlara köçürüldü.

? Hansı döyüş generallarımızı tanıyırsınız?

Dinc əhalinin atəşə tutulması, həmçinin Ermənistan ordusunun hücuma keçməsi Azərbaycan ordusunu cavab tədbirləri görməyə vadar etdi. Heç bir beynəlxalq hüququ, BMT qətnamələrini belə saya salmayan, sülh danışıqlarını bilərəkdən uzadan, dəfələrlə bu danışıqları pozan azğın düşmən artıq cəzalandırılmalı idi.

Qısa müddətdə rəşadətli ordumuz düşmənin 30 il ərzində hazırladığı və möhkəmliyi, keçilməzliyi ilə öyündüyü müdafiə xəttini yardı, dağlarda qurduğu yeraltı istehkamları darmadağın etdi. Müasir silahları – dronları, yüksəkdəqiqli hərbi texnikaları bacarıqla tətbiq edən Azərbaycan ordusu ilk olaraq Qarabağ səmasında üstünlüyü ələ aldı. İndi səmaya yalnız Azərbaycan şahinləri hakim idi! Düşmənin bütün hava hücumundan müdafiə sistemləri Pilotsuz Uçuş Aparatlarının (PUA) dəqiq zərbələri ilə məhv edildi.



**Dağıdılmış düşmən texnikası**

Quru döyüşlərində də düşmən müzəffər ordumuzun ardıcıl zərbələri altında aciz duruma düşdü. Hərbi əməliyyatların ilk günlərində Ağdərənin Talış yüksəkliyi və Suqovuşan kəndi azad edildi. Kəlbəcərdə hündürlüyü 3000 metrə çatan Murov yüksəkliyi düşməndən geri alındı.

Düşmənə Füzulidə də ağır zərbələr endirildi. Horadiz istiqamətində əks-hücuma keçib hərbi birləşmələrimizi mühasirəyə almağa cəhd edən erməni silahlıları tamamilə məhv edildi, onlarla düşmən texnikası – tanklar, toplar, avtomobillər qənimət götürüldü. Azərbaycan ordusu artıq qarşısıalınmaz idi. Arxa cəbhədən, əhalidən böyük mənəvi və maddi dəstək alan Azərbaycan əsgəri düşməni hər yerdən qovurdu. Bir-birinin ardınca Cəbrayıl,




**PUA ilə məhv edilən düşmən texnikası**

Füzuli, Zəngilan, Qubadlı şəhərləri və ətraf kəndlər düşməndən təmizləndi. “Məğlubedilməz” Ermənistan ordusu döyüş meydanında canlı qüvvə və texnika baxımından ağır itkilərə məruz qaldı, aciz duruma düşdü.

2020-ci ilin noyabrın 8-də Azərbaycan televiziyası məlumat verdi: Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti olacaq.

Bütün Azərbaycan xalqı səbirsizliklə ekranlar önündə ölkə başçısının çıxışını gözləyirdi. Budur, canlı yayım başlandı. Ali Baş Komandan elan etdi:



**“Bu gün Şuşa şəhəri düşmən işğalından azad edilmişdir! Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!”**

**Azərbaycan Ordusunun azad etdiyi ərazilərin işğal və azadolunma tarixləri ilə bağlı cədvəl hazırlayın.**



Qənimət kimi ələ keçirilən düşmən texnikası

Bütün ölkə bu möhtəşəm xəbəri bayram etdi. Qarabağımızın ürəyi azad edildi! Bunu xalqımız 28 il idi ki, arzu edirdi, həsrətlə gözləyirdi!

Şuşa əməliyyatı Azərbaycan əsgərinin möhtəşəm əsəri, dünya hərb tarixinin dərsliklərə düşəcək döyüş nümunəsinə çevrildi. Ordumuzun Xüsusi Təyinatlı Qüvvələri Şuşa şəhərini – Pənahəli xanın yadigarını heç bir texnikadan istifadə etmədən, əlbəyaxa döyüşlə azad etdi. Sayca və texnika baxımından üstün olan düşmən qüvvələri əsgərlərimizin yüksək döyüş ruhu qarşısında tab gətirmədi.

Şuşanın işğaldan azad edilməsi düşmənin bütün mənəvi gücünü məhv etdi. Məhz bu hadisədən bir gün sonra – noyabrın 9-dan 10-na keçən gecə üçtərəfli Rusiya-Azərbaycan-Ermənistan sazişi imzalandı. İşğalçı Ermənistan dövləti Azərbaycan Respublikası Ali Baş Komandanının təkliflərini qəbul edərək təslim oldu. Bu sazişlə işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonları da bir güllə belə atılmadan Azərbaycana qaytarıldı, ərazi bütövlüyümüz bərpa edildi.

Sentyabrın 27-dən noyabrın 10-dək keçən 44 gün ərzində Ermənistan ordusu Qarabağda əlverişli mövqelərə, strateji yüksəkliklərə hakim olmasına, güclü yeraltı-yerüstü istehkamlar qurmasına baxmayaraq, müzəffər Azərbaycan ordusu tərəfindən darmadağın edildi.



## Bir millət, iki dövlət

**Qardaş Türkiyə də beynəlxalq arenada Azərbaycana mənəvi dayaq olaraq qələbəmizdə öz qətiyyətli mövqeyi ilə mühüm rol oynadı. Türkiyə istehsalı olan "Bayraktar" TB2 PUA-ları isə düşmənin qorxunc röyasına çevrilmişdi.**



Bayraktar TB2

Ərazi bütövlüyümüzün bərpası uğrunda başlanan böyük Vətən Müharibəsi Azərbaycan xalqının qələbəsi ilə başa çatdı. 44 günlük döyüş əməliyyatları dövründə Ali Baş Komandan-Xalq-Ordu birliyi düşməni lərzəyə salan əzəmətli qüvvəyə çevrildi. Dilindən və dinindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşları Vətən uğrunda müqəddəs müharibəyə qoşulmuşdu. Ali Baş Komandan xalqa arxalanaraq bütün müharibə boyunca qətiyyət nümayiş etdirdi, xarici təzyiqlərə sinə gərərək hər məqamda Azərbaycanın haqlı mövqeyini dünyaya bəyan etdi.

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə 27 sentyabr **"Anım Günü"**, 8 noyabr isə **"Zəfər Günü"** elan edildi.

Hazırladı: Pərviz Ağalarov
Hafiz Cabbarov